Respublika.- 2019.- 8 iyun.- S.5



# MELİORASİYA VƏ SU TƏSSƏRRÜFATI İNNOVATİV İNKİŞAF YOLUNDA

**Ulu öndər Heydər Əliyevin məhz bu sahəyə xüsusi diqqət yetirməsi və həyata keçirilən böyük tədbirlər nəticəsində kənd təsərrüfatı sahəsində misilsiz nailiyyətlər əldə olunmuşdur. Onun əsaslı inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, məhz fenomen şəxsiyyətin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illərdə bu sahədə quruculuq işləri geniş vüsət almış, nəhəng layihələr hazırlanmış, iri su anbarları, hidroqovşaqlar tikilib istifadəyə verilmişdir.**

Xalqın təkidli dəvəti, taleyin hökmü ilə müdrik rəhbər, dünyamiqyaslı siyasətçi ulu öndər Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə qayıdışı ilə meliorasiya və su təsərrüfatı öz inkişafının yeni mərhələsinə qədəm qoymuş, bu sahəyə diqqət və dövlət qayğısı bərpa olunmuş, mövcud meliorasiya potensialının dağılmasının qarşısı alınmış, ondan daha səmərəli istifadə olunması yolları və sahənin gələcək inkişaf istiqamətləri müəyyənləşdirilmişdir. Aqrar islahatının bir hissəsi olaraq meliorasiya və su təsərrüfatı sahəsində islahatların torpaq islahatı ilə birlikdə, kompleks şəkildə aparılması nəzərdə tutulmuş, islahatların normativ-hüquqi bazası yaradılmış, normativ-hüquqi sənəd hazırlanmışdır. Elə həmin dövrdən başlayaraq, Meliorasiya və Su Təsərrüfatı rəhbərliyi və fədakar melioratorlar işlərini lazımi səviyyədə qurmuş və bu sahədə inkişafa nail olmuşlar. Ümummilli lider tərəfindən 1996-cı ildə imzalanmış "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanunu və onun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 1996-cı il tarixli Fərmanı bu işlərin yüksəldilməsinə stimul vermişdir.

İndi Azərbaycan Respublikası dünyanın ən sürətlə inkişaf edən, sabit və qüdrətli dövlətinə çevrilmişdir. Son illərdə ən böyük layihələrdən olan, strateji əhəmiyyəti və kapital qoyuluşu ilə nəhəng su anbarlarının tikintisi bunun bariz nümunəsidir. Bununla da minlərlə hektar torpaq sahəsinin suvarılmasına şərait yaranmışdır. Digər tərəfdən, bu, kənd təsərrüfatının inkişafına, yeni iş yerlərinin yaradılmasına imkan verib. Bütün bunlar sübut edir ki, ölkədə kənd təsərrüfatı istehsalının artırılmasında, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında böyük rolu olan mövcud meliorasiya və su təsərrüfatı fondlarının qorunub saxlanılması və onların istismarının yaxşılaşdırılması, bu sahənin müasir tələblər səviyyəsində daha da inkişaf etdirilməsi ölkə Prezidenti cənab İlham Əliyevin daim diqqət mərkəzindədir. Məhz dövlətimizin başçısının diqqəti və qayğısı sayəsində bu cür mühüm strateji əhəmiyyət kəsb edən layihələr reallığa çevrilmişdir. Son 16 ildə Azərbaycanda genişmiqyaslı suvarma kanalları, kollektor-drenaj şəbəkələrinin tikintisi, yenidən qurulması və bərpası, torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması işləri yüksək səviyyədə yerinə yetirilmiş, yeni suvarılan torpaq sahələri əkin dövriyyəsinə daxil edilmiş, subartezian quyuları qazılaraq istifadəyə verilmişdir. Ümumi sututumu 456 milyon kubmetr olan ən böyük layihələrdən olan, strateji əhəmiyyəti və kapital qoyuluşu ilə seçilən 4 su anbarı (Taxtakörpü, Şəmkirçay, Tovuzçay, Göytəpə) tikilib istifadəyə verilmişdir ki, bununla da minlərlə hektar torpaq sahəsinin suvarılmasına şərait yaradılmışdır.

Xüsusilə qeyd etmək lazımdır ki, Qərb bölgəsində yerləşən Şəmkirçay su anbarı və Şəmkir-Samux-Goranboy magistral suvarma kanalı kompleks layihəsi də bu baxımdan mühüm əhəmiyyətə malikdir. "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə dövlətimizin başçısına Şəmkirçay su anbarı və Şəmkir-Samux-Goranboy magistral suvarma kanalı kompleks layihəsi barədə məlumat vermiş və bildirmişdir ki, bu kanalın tikintisi ilə su mənbəyi işğal zonasında qalmış Goranboy rayonunun 8293 hektarı yeni suvarılacaq torpaq olmaqla, ümumilikdə 26584 hektar torpaq sahəsi suvarma suyu ilə təmin ediləcək. Qeyd edək ki, Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsinin İpək yoluna qədər 8,55 kilometrlik birinci mərhələsinin tikintisi 2017-ci ildə başa çatdırılıb, ölkə Prezidenti cənab İlham Əliyev Samux və Goranboy rayonlarının 941 hektarı yeni suvarılacaq torpaqlar olmaqla, 8938 hektar torpaq sahəsinə suvarma suyunun verilməsi mərasimində iştirak edib. Dövlətimizin başçısının həmin mərasimdə verdiyi tapşırıqların icrasına uyğun 2017-ci ildə Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsinin İpək yolu və ikinci dərəcəli avtomobil yolu ilə kəsişməsində keçid qurğularının, eləcə də kanalın tikintisi işləri davam etdirilib. Bu hissədə nəqliyyatın hərəkətinə maneçilik yaradılmaması üçün 450 metr uzunluğunda düzbucaqlı dəmir-beton suötürən qurğu, eləcə də uzunluğu 4,95 kilometr olan açıq dəmir-beton üzlüklü kanal inşa olunub. Bununla da, Goranboy rayonunda daha 8 min hektar sahəyə suvarma suyunun verilməsi təmin edilib.

Qeyd edək ki, ölkə Prezidenti cənab İlham Əliyevin xeyir-duası və iştirakı ilə 2009-cu ildə Şəmkir su anbarının tikintisinin təməlqoyma və 2014-cü ildə açılış mərasimləri keçirilmişdir. Su Elektrik Stansiyası ilə birlikdə Şəmkirçay su anbarının, ondan su götürən 60,5 kilometr uzunluğunda magistral kanalların istifadəyə verilməsi ilə Şəmkir, Samux, Göygöl və Goranboy rayonlarında 54 min hektar əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına, 17 min hektar yeni suvarılacaq torpaqların istifadəyə verilməsinə, ildə 56 milyon kilovat-saat elektrik enerjisinin istehsalına, Gəncə və Şəmkir şəhərlərinin, Samux rayonunun Nəbiağalı qəsəbəsinin əhalisinə ildə 50 milyon kubmetrə yaxın ekoloji təmiz içməli su verilməsinə imkan yaranmışdır. Hazırda su anbarından Şəmkir şəhərinə içməli su verilir, Gəncə şəhərinə və Samux rayonunun Nəbiağalı qəsəbəsinə isə içməli su xətti hazır olduqdan sonra suyun verilməsi təmin ediləcək. Şəmkirçay su anbarı istifadəyə verildiyi vaxtdan bu il yanvarın 1-dək oraya yığılan 740 milyon kubmetr su hesabına Şəmkir, Samux, Göygöl və Goranboy rayonlarının 43 min hektara yaxın əkin sahələrinin su təminatı yaxşılaşdırılıb, Şəmkir, Goranboy və Göygöl rayonlarının 4940 hektar, eləcə də "Şəmkir Aqropark"ın 543 hektar yeni suvarılacaq sahələri suvarma suyu ilə təmin edilmişdir. Ölkə Prezidenti cənab İlham Əliyev bu möhtəşəm layihənin açılışı zaman görülən işləri bəyənmiş, xeyir-dua vermişdir.

Bütün bunlar göstərir ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu və doğma Azərbaycanımızın tərəqqisini, müstəqilliyinin dönməzliyini və əbədiliyini təmin edən siyasət kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməklə yanaşı, həm də yeni çalarlarla, mexanizm və vasitələrlə zənginləşdirilir. Bu vaxta qədər ölkəmizdə sürətli inkişafa xidmət edəcək möhkəm bazanın formalaşdırılması isə qarşıdakı dövr ərzində Azərbaycanın qət edəcəyi tərəqqi yolunun, o cümlədən sosial inkişafının yenə möhtəşəm uğurlarla müşayiət olunacağını, ölkəmizin daha böyük sosial nailiyyətlərə imza atacağını böyük qətiyyətlə deməyə əsas verir.

Ölkəmizin su təsərrüfatı və meliorasiya işçiləri üçün 5 iyun olduqca əlamətdar bir gündür, çünki bu ruzi-bərəkət yaradanların bayramıdır. Onlar böyük coşqu və sevinc hissi ilə həmin günü öz peşə bayramlarını qeyd edirlər. Fürsətdən istifadə edib, 5 iyun "Su təsərrüfatı və meliorasiya işçiləri günü" peşə bayramı münasibətilə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyini və ölkəmizin bütün meliorasiya və su təsərrüfatı işçilərini təbrik edir və müstəqil dövlətimizin inkişafı naminə şərəfli işlərində onlara daha böyük müvəffəqiyyətlər arzu edirəm.

**İlqar MƏHƏRRƏMOV,**
**Göygöl Suvarma Sistemləri İdarəsinin rəisi.**